Ermənistanın uzun illər ərzində yeritdiyi seperatizm siyasəti, törətdiyi vandalizm əməlləri, Azərbaycanın və digər ölkələrin qədim tarixi abidələrinə, mədəniyyət nümunələrinə düşmən münasibəti artıq bütün dünyaya məlumdur. İşğalçı ölkənin vandalları tərəfindən İkinci Dünya müharibəsi (1941-1945) dövrünə həsr olunan monumentlərin məhv edilməsi, bu günlərdə isə Hindistanın Azadlıq hərəkatının siyasi rəhbəri və dini lideri, erməni yalanlarına heç vaxt dəstək verməyən Mahatma Qandinin heykəlinin yandırılması bunun bariz ifadəsidir.



# Erməni vandalizmi sərhəd tanımır

Yeri gəlmişkən, ermənilər tərəfindən Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkün və azərbaycanlıların dostu, soyqırımı əleyhdarı adlandırılan Mahatma Qandinin İrəvandakı heykəlinin yandırılması hind xalqına, onun liderinə və tarixinə hörmətsizlikdir.

Xatırladaq ki, xarici informasiya agentliklərinin məlumatlarında bildirilir ki, erməni millətçiləri tərəfindən əvvəlcə Mahatma Qandinin heykəli yumurta atəşinə tutulub, daha sonra adı yazılan lövhə sökülüb. Bunun ardınca isə yandırılıb. Bütün bunlar azmış kimi, abidənin götürülməsi tələb edilib. Hüquq-mühafizə orqanları tərəfindən isə bu vandalizm əməli sükutla qarşılanıb.

“İnterfaks” informasiya agentliyi xəbər verir ki, “İrəvanın alternativ meriyası” İctimai Birliyi heykəlin fotosunu “Facebook” səhifəsində yerləşdirərək, abidənin sökülməsinin vacibliyinə dair çağırış edib: “Qandi ermənilərə nifrət edənlərdən və Atatürkün müttəfiqlərindən olub. Biz heykəlin sökülməsi üçün mübarizə aparacağıq. İrəvanda ona yer yoxdur”.

Agentliyin məlumatında, həmçinin bildirilir ki, Mahatma Qandinin heykəli İrəvan meriyasının qərarı ilə bir neçə gün əvvəl qoyulub. Bundan sonra isə qeyd edilən vandal hərəkətlər törədilib.

Xarici informasiya agentliklərinin məlumatlarında erməni millətçilərinin Mahatma Qandinin abidəsinə belə barbar münasibətinin əsas səbəbinin Hindistan liderinin qondarma “erməni soyqırımı”nın baş verməsi faktını inkar etməsi ilə bağlı olduğu bildirilir.

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Bakıda səfərdə olan Litvanın xarici işlər naziri ilə birgə mətbuat konfransında bu barbarlığa münasibət bildirərək, Ermənistanın antisemitizmin hökm sürdüyü ölkələr arasında ilk yerlərdə olduğunu qeyd edib. Nazir daha sonra vurğulayıb: “Bir neçə gün öncə İrəvanda Mahatma Qandinin heykəlinə qarşı vandalizm aktı törədilib, heykəl yandırılıb. Erməni xalqı onların beyninə saxta fikirlər yeridən ideoloqlarından yaxalarını qurtarsalar, bu, hər kəs üçün, elə onların özləri üçün də yaxşı olar. Biz hesab edirik ki, gələcəyə baxmaq lazımdır. Erməni xalqı bunu nə qədər tez anlasa, bu, regional inkişaf, sülh və sabitlik üçün yaxşı olar”.

Ermənistanın bu cür vandal hərəkətləri nəticəsində 30 ilə yaxın bir dövr ərzində Azərbaycanın işğal altında saxlanılan Qarabağ və ətraf ərazilərindəki bütün yaşayış məntəqələri, infrastrukturu tamamilə dağıdılıb, maddi-mədəni abidələrinin bir hissəsi sıradan çıxarılıb, təhqir olunub, bəzilərinin isə erməniləşdirilməsinə cəhd göstərilib, təbii sərvətləri talan edilib.

Ağdamda may ayının 1-də səfərdə olan Rusiyada çıxan “Nasionalnaya oborona” jurnalının baş redaktoru İqor Korotçenko Azərbaycanın bu tarixi şəhərində erməni işğalçılarının törətdikləri vandal əməllər barədə jurnalistlərə müsahibəsində bildirib ki, yerlə bir edilən Ağdam atom bombası ilə dağıdılan Xirosima və Naqasakini xatırladır. Lakin ermənilər burada atom bombası partlatmayıblar, onların atom bombası yox idi. Ermənilər bu şəhərdə Azərbaycan xalqına nifrət bombası partladıblar.

İ.Korotçenko daha sonra qeyd edib ki, törədilmiş dağıntıların miqyası ağlasığmazdır: “Dünyada bəlkə ikinci elə yer yoxdur ki, vandalizm, nifrət və düşmənçilik bu qədər geniş miqyas almış olsun. Bu, hərbi cinayətdir, Ermənistanın hərbi və siyasi rəhbərləri buna görə beynəlxalq tribunalda cavab verməlidirlər. Belə əməlləri bağışlamaq mümkün deyil. Bu, insanlıq əleyhinə cinayətdir. Bir daha təkrar edirəm, bu, vəhşicəsinə törədilmiş hərbi cinayətdir. Ermənistanda Birinci və İkinci Qarabağ müharibələrini törətmiş siyasətçilər, 1 milyondan çox azərbaycanlını doğma yurdlarından qovmuş erməni hərbçiləri və yaraqlıları öz hərbi cinayətlərinə görə cavab verməlidirlər”.

Ağdama səfəri zamanı Rusiya Dövlət Dumasının Liberal-Demokrat Partiyasından olan deputatı, Dumanın iqtisadi siyasət, sənaye, innovasiyalı inkişaf və sahibkarlıq üzrə komitəsi sədrinin birinci müavini Sergey Kalaşnikov isə bildirib ki, bütün keçmiş Sovet İttifaqı Ağdamı tanıyırdı: “Biz indi bu şəhərin əl ilə törədilmiş xarabalıqları üzərində dayanmışıq və əlbəttə ki, bu, çox acı təəssürat doğurur. İstənilən halda XXI əsrdə vəhşiliyin hər hansı təzahürü yolverilməzdir”.

Ağdam Ermənistan silahlı qüvvələrinin işğalı altında olduğu zaman erməni faşistləri şəhərin İmarət qəbiristanlığında Qarabağın sonuncu hakimi Mehdiqulu xan Cavanşirin qızı görkəmli şairə Xurşidbanu Natəvanın məqbərəsinə qarşı vəhşilik əməlləri törədiblər, onun dəfn edildiyi məzar tamamilə dağıdılıb, sümükləri qəbrindən çıxarılaraq aparılıb. Yeri gəlmişkən, xatırladaq ki, Qarabağ xanlığının əsasını qoyan Pənahəli xanın Ağdamdakı sarayı da vandalizmə məruz qalıb. Tövlə kimi istifadə edilən həmin sarayda inək və donuz saxlanılıb. Erməni barbarları, həmçinin İbrahimxəlil xanın türbəsini də məhv ediblər. Ermənilər xislətlərinə uyğun olaraq, Ağdamdakı Şəhidlər xiyabanındakı qəbirlərin əksəriyyətini qarət məqsədilə qazaraq dağıdıblar. Bununla yanaşı, Şahbulaq qalasını erməniləşdirməyə çalışsalar da, buna nail ola bilməyiblər. Cümə məscidində isə mal-qara və donuz saxlamaqla, İslam dinini təhqir ediblər.

Ermənilərin yaşayış məntəqələrimizə, maddi-mədəni abidələrimizə düşmən münasibəti, insanlıqla bir araya sığmayan vəhşi əməlləri təkcə Ağdam şəhəri ilə bitmir. İşğalçı Dağlıq Qarabağ və ətraf rayonların demək olar ki, hər qarışını xarabalığa çevirib, təbii sərvətlərimizi talan edib, maddi-mədəni irsimizi dağıdıb, hətta təhqir etməkdən belə çəkinməyib.

Əslində, beynəlxalq konvensiyalarda bəşəri cinayət kimi qiymətləndirilən bu əməllər bütün dünya mədəniyyətinə qarşı təcavüz kimi qiymətləndirilməlidir. Çünki talan və məhv edilən dəyərlər nəinki ölkəmizin, həm də bütün dünya sivilizasiyasının misilsiz mədəniyyət nümunələridir. Buna baxmayaraq, bu cür barbarlığı, təəssüf ki, dünya birliyi susqunluqla qarşılayır, biganə münasibət sərgiləyir.

***V.BAYRAMOV,***
***“Xalq qəzeti”***

Xalq qəzeti 2021.- 5 may.- S.6.